**Respublika**. - 2024. - 14 avqust. - № 172. - S. 7.

# Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq öhdəliklərini yerinə yetirmək əzmindədir

**Bayram Salmanov**

**COP29-a ev sahibliyi etməyə hazırlaşan paytaxtımızda son 6 ayda çox böyük işlər görülüb, hazırda da bu tədbirlər yüksək səviyyədə davam etdirilir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı ərəfəsində cəmiyyəti maarifləndirərək səfərbər etmək məqsədilə ilk İqlim Fəaliyyəti Həftəsinə hazırlıq görülür. Bakı İqlim Fəaliyyəti Həftəsi sentyabrın 30-dan oktyabrın 4-nə qədər keçiriləcək. Dünyanın şəhər səviyyəli ən perspektivli ictimai iqlim tədbiri olan London İqlim Fəaliyyəti Həftəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunan Bakı İqlim Fəaliyyəti Həftəsində yüksək səviyyəli beynəlxalq konfransların, həmçinin yerli və icmayönümlü tədbirlərin keçirilməsi nəzərdə tutulur.**

Bakı İqlim Fəaliyyəti Həftəsi ölkəmizdə iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərini sürətləndirmək üçün dövlət səviyyəsində aparılan müzakirələrin genişləndirilməsi baxımından növbəti əhəmiyyətli mərhələdir. İqlim Fəaliyyəti Həftəsi siyasi lider və şirkət rəhbərlərindən tutmuş yerli icma və gənclərə qədər hər kəsi cəlb etməklə yanaşı, Azərbaycanın iqlim dəyişmələrindən irəli gələn cari problemlərin həlli və "yaşıl" keçidin təklif etdiyi imkanları araşdırmaq üçün maarifləndirici və stimullaşdırıcı platforma olacaq. "Yaşıl" keçidin faydalarını həm yerli, həm də beynəlxalq səviyyədə cəmiyyətin diqqətinə çatdırmaq üçün insanları bir araya gətirmək müsbət haldır. Bakı İqlim Fəaliyyəti Həftəsi COP29-a doğru böyük bir addım olmaqla yanaşı, cəmiyyəti iqlim dəyişmələrinə qarşı mübarizədə səfərbər etmək əzmini də əyani şəkildə sərgiləyəcək.

London İqlim Fəaliyyəti Həftəsinin təsisçisi və sədri, iqlim dəyişmələri sahəsində səylərinə və COP26 (BB) Sədrliyinə göstərdiyi dəstəyə görə Britaniya İmperiyası Ordeninə (OBE) layiq görülmüş Nik Mabey bildirmişdir: "Biz COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu və onun komandasını 22-30 iyun 2024-cü il tarixlərində Londonda keçirilmiş İqlim Fəaliyyəti Həftəsində qəbul etdiyimiz üçün çox məmnunuq. Londonda cəmiyyətin bütün təbəqələrini səfərbər edən bu unikal model Oklend, Sidney və Dublin kimi şəhərlərdə də bənzər həftələrin keçirilməsinə stimul verib. İndi isə Bakıda bu layihə üzərində işləmək bizim üçün qürurverici haldır".

Qeyd edək ki, builki tədbirin əsas mövzuları "Enerji keçidi", "Şəhərlər/urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar" olacaq.

Bütün bunları nəzərə alaraq tam əminliklə deyə bilərik ki, Azərbaycan COP29-a ev sahibliyi etməklə bərpaolunan enerji ilə bağlı hədəflərinə nail olmaq, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini və iqlim dəyişmələri ilə mübarizə üzrə beynəlxalq öhdəliklərini yerinə yetirmək əzmindədir.

Onu da qeyd edək ki, COP29 sülhü, əmin-amanlığı, dialoqu və barışığı daha geniş şəkildə təbliğ etmək, iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi və diplomatik səyləri səfərbərliyə almaq məqsədi daşıyır.

COP29-un Azərbaycana qazandıracağı mühüm nailiyyətlərdən biri ölkəmizdə yeni yaranan bərpaolunan enerji sənayesinə birbaşa xarici investorlar cəlb edilməsi olacaq. Bunun fonunda beynəlxalq investorlar "yaşıl iqtisadiyyat" kontekstində Qafqaz regionuna sərmayə yatıracaqlar.

Bərpaolunan enerji və yaşıl transformasiya sahəsində effektiv siyasət yürüdülməsi sayəsində və belə önəmli beynəlxalq tədbirin Azərbaycanda təşkili ölkəmizin nüfuzunu dünya miqyasında daha da artıracaq. COP29 dövlətimizin bir çox ölkə və beynəlxalq təşkilatlarla siyasi əlaqələrinə müsbət təsir göstərəcək, ölkə iqtisadiyyatını gücləndirəcək, investisiya imkanlarının arealını genişləndirəcək, turizm potensialını dərinləşdirəcək.